# AZƏRBAYCAN FƏLSƏFİ POEZİYASINDA RƏMZLƏR (NÖQTƏ RƏMZİ)

M.Ə.ABDULLAYEVA*

Azərbaycan fəlsəfi poeziyası bədii dəyərlərinə görə söz sənətinin zirvəsində dayanır. Lakin onun fəlsəfi anlamı çox az öyrənilib və o, layiqli qiymətini gözləməkdədir. Həqiqi mənası batinində gizlənmiş, formanın gözəl örtük olduğu, mistik təcrübələrdən əldə edilmiş gizli biliklərin rəmzləşdirildiyi sənət inciləri – fəlsəfi poeziya nümunələri qiymətli və əvəzsiz tədqiqat obyekti, zəngin xəzinədir. Xəzinənin gövhərlərini əldə etmək üçün əvvəlcə onun əsrlərlə bağlı qalmış qapısını açmaq lazımdır. Qapının açarı rəmzlərin – kodların dilidir, bu dil isə metaforadır. Varlıq aləmində görünən hər şey həyatın maddi şəklinin arxasında gizlənmiş batini mənanın açarı olan işarədir – ayətdir.

Aydan balığadək görünən hər bir varlıq
İlahi xəzinəsinin başına vurulmuş bir tilsimdir.
Bağlı tilsimi zəhmətlə tapa bilərsən,
Onu sındırandan sonra altından xəzinə taparsan (1, s.28)

Kainat kosmik kod vasitəsilə yazılmış məlumatdır və bu məlumatı öyrənmək kodların şifrəsini açmaq üçün lazımdır. Nizami Gəncəvi öz qəhrəmanı Məcnunu zəmanəsinin ən ağıllı adamı sayırdı, çünki Məcnun rüsumların, rəmzlərin batini mənasını oxuya bilən gizli bilik sahibi idi.

Elə güman etmə ki, Məcnun
Gördüyün bu divanələrdən idi:
Orucsuz, namazsız, işıqsıq,
Ağıla yad, ədəbdən uzaq idi.
Zamanında əsrin ən bilicisi idi.
Fələyin rüsumunu dərindən bilirdi.
Gizli biliyin sirrini bilib
Səma rəmzlərini həll etmişdi (2, s. 206)

Kainat haqqında, makro və mikrokosmos haqqında gizli bilikləri gözəl söz qəlibinə salmış sənətkarların metaforik, rəmzi dilini çox vaxt dərk etmək çətin, hətta qeyri-mümkündür. Okkultistlər

* Abdullayeva Mətanət – filologiya elmləri namizədi, BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti.

deyirlər ki, fəlsəfə kainatın quruluşunu müxtəlif vasitələrlə təsvir etmək cəhdidir. Fəlsəfi dilin əsas vasitəsi metaforadır və hər bir metaforanın arxasında həqiqətdən bir zərrə gizlənib.

Bildiyim hər bir naxışdan səni axtarıram,
Oxuduğum hər bir sözün məqsədi sənsən.
Səndən üz döndərdiyimdəndir ki, daim
Hər bir əhlə və naəhlə əl uzadıram (1, s.30)

Fəlsəfi poeziyada kosmoqoniya ilə bağlı məsələləri araşdırarkən rast gəldiyimiz nöqtə rəmzi diqqətimizi cəlb etdi. Teosofiyada nöqtə əzəli və sonsuz olan ilahi substansiyanın – mütləq varlığın rəmzi, abstrakt mövcudluqdan potensial mövcudluğa diferensiasiyanın simvoludur. Şərq təsəvvüfündə və Qərb teosofiyasında Allahın rəmzi işarələrindən ən birinci sayılanı nöqtədir – başlanğıclar başlanğıcı. İbn Sina yazır: «Vahid, mahiyyətcə xüsusi anlayışdır. Onun iki növü var: o, ya bir mənada vahiddir, başqa mənada cəmdir (küllidir), ya da heç bir mənada onun mahiyyətində cəmlik yoxdur: məsələn nöqtə – qüdrətli Allah bu cürdür» (3, s.162).

Teosoflar hesab edirlər ki, ilahi substansiyanın ilkin simvollarından biri də vahid sahə – çevrədir. Çevrədə hər şey bərabərdir, heç bir prioritet yoxdur. Buna görə də çevrə ümumi və sonsuz mövcudluğun təsviridir. Kürə, öz növbəsində, çevrənin fəzadakı inkişafıdır ki, o da vahid mövcudluq simvoludur. Bu, əvvəlcə qədim yəhudilərin dini görüşlərində yaranıb, sonra isə xristianlıqda və islamda təsdiqlənib. Əbəs yerə Pifaqor ən gözəl həndəsi fiqur çevrəni (dairəni), ən gözəl həndəsi cism kürəni adlandırmayıb.

Yer kürəsində yaşayan qədim insanlar kosmoloji təsəvvürlərini müxtəlif əşyalar üzərində naxış kimi həkk edirdilər. Belə naxışlardan ən çox istifadə olunanı dairədir. Neolit dövründə çinlilərin saxsı qablar üzərində müxtəlif rakurslu stilizə olunmuş dairə (çevrə) formasında naxışlardan istifadə etmələri haqqında oxuyuruq: «Bütün hallarda hər bir dairəvi işarəni səmanın müxtəlif sahələrinin təsvirləri və ya kosmik hərəkət kimi qəbul etmək olar. Aydındır ki, bu tip işarələrin əsassız olaraq çəkilməsini söyləmək səhv fikirdir. Əksinə, görünür ki, kosmoloji şəkillər kainat haqqında müəyyən təsvirlərə ciddi riayət edərək çəkilirdi» (4, s.188).

İbtidai insanların çəkdikləri naxış-işarələrin semantikası axıradək açılmasa da, onların kosmoloji mahiyyət daşıması şəksizdir.

Nöqtə ideyasının rəngkarlıqda stilizə olunmuş formaları – həndəsi fiqurlar qara kvadrat, xaç və dairədir. Bu fiqurlar XX əsrdə rəngkarlıqda yaranmış suprematizm (ali, ən yüksək) cərəyanının əsas istinad obyektləridir. Onlar metafizik boşluğu və xalis yaradılış aktını simvolizə edir. Bu fiqurlar seyrçini sonsuz dərinliyə, intəhasız heç nəyə, başqa cür desək, öz daxilinə qərq edir. İntəhasız heç nə sufilərin fəna məqamına uyğundur. Mistik eşq yolçuluğuna çıxmış aşiq bir sıra məqamları, o cümlədən, yeddi əsas məqamı keçməlidir. Altı məqamdan sonra hər şeyini itirib bütün bağlantılardan azad olan eşq yolçusu yeddinci məqamda, qətrə

ümmanla birləşən anda özünün də heç nə olduğunu dərk edir və bu zaman onun üçün yeni bir aləm bütün gözəlliyi və möhtəşəmliyi ilə açılır, reallaşır, mikrokosmosda makrokosmosun inikası baş verir. Özünün fərdi, kiçik aləmini itirən bütün kainatı «qazanır». Sufilərin «diri ikən öl ki, yenidən diriləsən» tezisi bu məqamın ifadəsidir. Bu prosesə suprematistlər ağ lövhədə qara həndəsi fiqura zikr etmək yolu ilə çatırlar. Lövhənin ortasındakı fiqur – stilizə olunmuş nöqtə potensial varlıq aləmidir. Hər adam sufi ola bilmədiyi kimi, suprematist də ola bilməz. Suprematistlərə görə, qiymətli hər nə varsa, xarici aləmdə yox, insanın daxilindədir, kamil insan bütün gözəlliklərin daşıyıcısıdır. Suprematizm (sufilikdə olduğu kimi) zikr edənin ruhunun öz daxilində təmərküzləşməsinə imkan yaradır. Ağ lövhənin ortasındakı fiqura meditasiya etmək həmin imkanın əldə edilməsi üçün qapıdır. Bir nöqtədə təmərküzləşərək bütün yaradılışa bu qapıdan daxil olmaq suprematistlər üçün (o cümlədən, sufilər və digər okkultistlər üçün) mümkündür.

Qayıdaq çevrə ilə nöqtənin semantik izahına. Dediyimiz kimi, nöqtədə bütün yaradılış ehtiva olunur. Tanrı aləmləri yaratmamışdan və xəlq olunanlar cismə gəlməmişdən əvvəl bir nöqtədə idilər. Nöqtənin klassik poeziyada bədii ifadələrindən biri yoxluq sözüdür ki, bu da metafizik yoxluğa işarədir:

Dünyaya gəlmədən qəmi-ləli-ləbinlə biz,
Yoxluqda ömrlər uzunu bahəm olmuşuq. (5, s.352)

Beytin mənasından anlaşılır ki, mütləq varlığın «ol!» kəlməsindən əvvəl hər bir şey uzun illər (bəlkə, min, milyon illər) abstrakt mövcudluq formasında cəm idi. Nəsimi bu fikri daha sadə tərzdə belə ifadə edir:

Yer ilə göy bina olmazdan əqdəm
Nəsimi aşiq idi ol cəmalə. (7, s.52)

Abstrakt mövcudluqda cəm olan və hələ təzahür olunmamış məxluqat aşiqlik halında olduğu üçün nöqtənin digər bədii ifadəsi vadiyi-eşqdir:

Vadiyi-eşqdə sövda ilə sərgəştə idim
Gəlmədən gərdişə bu günbədi-dəvvar hənuz.
Nöqteyi-xalinə bağlanmış idi canü-könül
Gəzmədən daireyi-dövrdə pərgar hənuz. (6, s. 170)

Nöqtə, göründüyü kimi, İlahi Zatın batindən xaricə intişarının ilkin vəziyyətini qeyd edir. Aktiv dövrdə, yoxluqdan varlığa keçiddə, zülmətin nurlanması dövründə abstrakt mövcudluqdan potensial mövcudluğa keçid teosofiyada nöqtə və ətrafında çevrə ilə göstərilir. Bu, nöqtənin genişlənməsidir. Nöqtənin genişlənməsi nəticəsində surət, aləmi-kainat yaranır. Elmi məlumatlara əsasən, kainatın genişlənməsi hələ də davam edir. Quranda kainatın yenidən yığılıb bir nöqtəyə qayıdacağı göstərilir. «Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü yadınıza salın. İlk dəfə yarat-

dığımız кimi qaytarıb əvvəlкi halına salarıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyiк». («Ənbiya surəsi, 104-cü ayə). Harun Yəhya «Quran möcüzələri» кitabında bu barədə aşağıdaкıları yazır: «Kainat başlanğıcda olduğu кimi, əvvəlcə yavaş-yavaş, sonra isə sonsuz yoğunluq və sonsuz hərarətdə, sonsuz кiçiкliкdə bir nöqtə halına gələcəк» (s.20).

Nizami Gəncəvi nöqtədən aləmlərin intişarını rəmzi formada belə ifadə edir:

Kim məndən fələyin sirlərini soruşdu кi,
Onları bir-bir ona başa salmadım?
Bu кöhnə gülşəni başdan ayağadəк
Qulaq assan, sənə aydınlaşdıraram.
Xətləri müxtəlif olan o nöqtədən
İlк gələn hərəкət əlif oldu.
Sonra pərgar o xəttə başqa xətt bağladı,
O iкi, uzaqlıqdan bəsit (Müstəvi) yarandı.
Elə кi, üç xətt mərкəzi əhatə etdi,
Bəsit şəкlindən cisim hazır oldu.
Xəttdir, sahədir, sonra da cisimlər
Ki, onlara sən üç ölçü adı vermisən.
Bu tərtiblə əvvəldən axıradəк
Aləmi layiqincə öyrənməк olar.
Bu göstərmə ağıla zahir olunca,
Bircə sıçrayışla əvvələdən axıra qədər qaçar (1, s. 315-316)

Nöqtədən gələn ilк hərəкət birölçülü aləmi, bir istiqaməti yaradıb, sonra gələn iкinci xətlə iкiölçülü aləm-müstəvi (iкi istiqamət: ön, arxa və sağ, sol) yaranıb, elə кi üçüncü xətt əlavə olundu, sahədən üçölçülü aləm - cisim (üç кoordinatı – eni, uzunluğu, hündürlüyü olan maddi aləm) yarandı. Deməк, nöqtənin ilк emanasiyasından xətt, sonraкı emanasiyalardan sahə (müstəvi) və cisim hasil oldu. Bir, iкi və üç istiqamət aşağı aləmlərin struкturudur. Bəs yuxarı aləmlər necədir və Nizami «əvvəldən axıradəк» dediкdə nəyi nəzərdə tutub? Fiкrimizcə, кainatda mövcud olan sonsuz n-ölçüsü aləmləri, Nizaminin dediyi кimi, bu göstərməni – nümunəni dərк edə bilən bu tərtiblə digər aləmləri öyrənə bilər.

Klassiк poeziyanın rəmzlərini açdıqca həm də «zamanın кorroziyasından» qorunmaq funкsiyasını yerinə yetirən metaforiк örtüyə bürünmüş gizli biliкlərin sehrli dünyasında qarış-qarış addımlamaq imкanı qazanırıq. Bu qazanc böyüк dühа sahiblərinin bəşər övladları üçün qoyub getdiкləri və yüz, min illər sonra da (dünya durduqca) öyrəniləcəк ən qiymətli və əvəzsiz mirasdır.

## ƏDƏBİYYAT


1. Nizami Gəncəvi. Xosrov və Şirin. Filoloji tərcümə. B., 1981.
2. Nizami Gəncəvi. Leyli və Məcnun. Filoloji tərcümə. B., 1981.
3. Ибн Сина. Даниш-намэ. Сталинабад, 1957, с.162.
4. Кашина Т.И. Семантика орнаментации неалитической керамики Китая.// У истоков творчества, Новосибирск, 1978.

5. Füzuli. Seçilmiş əsərləri. B., 1988.
6. Füzuli. Seçilmiş əsərləri, B., 1985.
7. Nəsimi. Seçilmiş əsərləri. B., 1985.
8. Harun Yəhya. Quran möcüzələri. Bakı.

## СИМВОЛЫ В АЗЕРБАЙДЖАНСКОЙ ФИЛОСОФСКОЙ ПОЭЗИИ (СИМВОЛ ТОЧКА)

**М.А. АБДУЛЛАЕВА**

### РЕЗЮМЕ

Азербайджанская философская поэзия является бесценным и незаменимым объектом исследования философско-мистического мировоззрения – тайной сокровищницы средних веков. Чтобы открыть двери этой сокровищницы, нужно приобрести ключи – понять смысл символов, которые являются покрывалом тайных знаний.

Язык символов – метафоры были искусно использованы великими мастерами слов.

Точка – начало из начал. Она символизирует миротворение, т.е. состояние Вселенной до великого миротворения.